# Aqrar sahə: modern texnologiyalar və innovativ yanaşmalar





***Müsahibimiz Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevdir***

***– Tahir müəllim, kənd təsərrüfatı məhsullarının ixracının təşviqi üçün hansı güzəştlər edilə bilər?***

– Bu, çox vacib amildir. Azərbaycan hökuməti son illər kənd təsərrüfatı məhsullarının xarici bazarlarda rəqabət imkanlarını artırmaq üçün bütün lazımi tədbirləri görür. Fərmanda nəzərə alındığı kimi, yaxın aylar ərzində ixrac məqsədli aqrar istehsal mallarına yeni gömrük və vergi güzəştləri tətbiq olunacaq.

Yaxın gələcəkdə fermerlərin mülkiyyət hüququnun saxlanılması şərtilə kənd təsərrüfatı texnikasının lizinqə (icarəyə) verilməsinin əlavə dəyər vergisindən azad edilməsi də gündəmdədir. Aqrar istehsal sahəsində fəaliyyət göstərən müəssisələrin, habelə aqroparkların investisiya təşviqi mexanizmindən yararlanmaq imkanları genişləndiriləcək.

İnanıram ki, sadaladığım bu və başqa bütün vacib tədbirlər aqrar sektorun inkişafına öz müsbət təsirini göstərəcək. Fikrimcə, aqrar sahədə tətbiq olunan güzəştlər istehsalın artmasına, məhsuldarlığın yüksəlməsinə səbəb olacaq. Son nəticədə, həm kəndli, həm də dövlət qazanır. Kəndlinin çörəyi bol olanda, dövlət də güclü və qüdrətli olur.

Əlamətdar haldır ki, yaxın aylar ərzində aqrar sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammala tələbatını, istehsalçıların istehsal etdiyi kənd təsərrüfatı məhsullarına dair məlumatları əks etdirən və elektron ticarət imkanlarına malik olan informasiya portalı yaradılacaqdır.

Fermerlər portalın imkanlarından istifadə edib ölkədə və dünyada aqrar sektorda əldə olunan qabaqcıl təcrübədən bəhrələnə bilərlər. Yeri gəlmişkən, siz jurnalistlər, bütövlükdə ölkə mediası da fermerlərə informasiya təminatında yardımçı ola bilərlər.

***– Siz Milli Məclisin Aqrar siyasət komitəsinə rəhbərlik edirsiniz. Necə fikirləşirsiniz, mövcud qanunlar ölkəmizdə kənd təsərrüfatının sürətli inkişafını kifayət qədər təşviq edə bilirmi?***

– Aqrar siyasət komitəsi hər bir qanunu, bu və digər normativ sənədi ölkəmizdə kənd təsərrüfatının sürətli inkişafını təmin və təşviq etmək məqsədilə hazırlayır. Torpaqda çalışan hər bir insan öz əməyinin bəhrəsini görməlidir ki, ailəsini dolandıra bilsin, az məsrəflə daha çox məhsul toplamaqda maraqlı olsun.

***– Prezident İlham Əliyev bu il iyulun 15-də "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" Fərman imzalayıb. Əvvəlcə bu sənədin əhəmiyyəti barədə fikrinizi bildirməyinizi xahiş edirəm.***

– Böyük məmnuniyyətlə. Fərman ölkəmizdə aqrar sektorun keyfiyyətcə yeni, daha yüksək səviyyəyə çatdırmaq məqsədi daşıyır. Azərbaycan dövləti modern texnologiyaları tətbiq etməklə, innovativ yanaşmalara meydan açmaqla, aqrar sektoru yeni inkişaf mərhələsinə çatdırmaq əzmindədir. Sənəddə qeyd edildiyi kimi, son illər ərzində Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf edərək, qeyri-neft iqtisadiyyatının mühüm sahələrindən birinə çevrilmişdir.

Bu uğur cənab İlham Əliyevin rəhbərliyi ilə aqrar sektorda həyata keçirilən hərtərəfli, düşünülmüş islahatların nəticəsində mümkün olmuşdur.

Konkret misal çəkə bilərəm. Bu ilin birinci yarısında ölkəmizdə qeyri-neft sektoru 5 faizdən çox artıb. Kənd təsərrüfatı üzrə artım isə 5,6 faiz olub. Bu, əlbəttə, əhəmiyyətli göstəricidir. Nəzərə almaq lazımdır ki, bu, pandemiya şəraitində əldə olunub. Bir çox ölkələr hələ də iqtisadi geriləmədən canların qurtara bilməyiblər, amma, Azərbaycan iqtisadiyyatının inkişaf tempi artmaqdadır.

Aqrar sektordakı uğurlar göz qabağındadır. Ötən illə müqayisədə aqrar sahədə inkişaf dinamikası, demək olar ki, iki dəfə yüksəlib. Bir daha qeyd etmək istəyirəm ki, bu parlaq uğur dövlətin aqrar sektora, fermerlərə göstərdiyi hərtərəfli dəstəyin sayəsində mümkün olub. Cənab Prezidentin dəfələrlə qeyd etdiyi kimi, dövlət dəstəyi olmadan kənd təsərrüfatında sürətli inkişafa nail olmaq qeyri-mümkündür.

***– Həyat, təbii ki, bir yerdə durmur, daim inkişaf edir, bütün sahələrin, o cümlədən aqrar sahənin qarşısında yeni tələblər irəli sürür. Bu gün aqrar sektorda hansı mühüm çağırışlar öz həllini gözləyir?***

– Azərbaycanda kənd təsərrüfatının qarşısında duran əsas vəzifə əhalinin ərzaq təhlükəsizliyini təmin etməkdir. Burada bir məqamı mütləq vurğulamaq lazımdır. Biz İkinci Qarabağ müharibəsini parlaq zəfərlə başa çatdırmışıq. Lakin unutmaq olmaz ki xalqımızı ən zəruri və keyfiyyətli ərzaqla təmin etmək, ölkə sərhədlərini etibarlı qorumaq qədər vacib və zəruridir.

Bu məqsədə çatmağın yolları müxtəlifdir. Azərbaycan dövləti ərzaq təhlükəsizliyini ekstensiv deyil, intensiv yollarla, yəni məhsuldarlığı artırmaq, məhsulun maya dəyərini aşağı salmaq, keyfiyyətini yüksəltmək vasitəsilə təmin etməyi hədəf götürüb. Bu mənada haqqında söhbət açdığımız fərmanın uğurlu icrasının son dərəcə böyük rolu olacaq.

Görünən budur ki, bu gün Azərbaycan dövləti aqrar sektorda bir yandan modern texnologiyaları tez və uğurlu surətdə tətbiq etməyə, o biri tərəfdən də innovativ metod və düşüncələrə meydan açmağa çalışır. Hazırda aqrar sahədə elektronlaşma sürətlənir, yeni, səmərəli idarəetmə sistemi qurulur. Ölkədə aqroparkların fəaliyyəti tənzimlənir, kənd təsərrüfatı təyinatlı torpaqların səmərəli istifadəsi məqsədilə həmin torpaq sahələrinin icarəyə və istifadəyə verilməsi mexanizmi daha da təkmilləşdirilir.

Dövlət çalışır ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının müvafiq resurslara, o cümlədən əlverişli maliyyə resurslarına çıxışı asanlaşsın, bu sahədə işgüzar biznes mühiti daha da yaxşılaşsın.

Aqrar sektorda çalışanlar bu pozitiv proseslərdən məmnun qalırlar. Ən vacibi və əhəmiyyətlisi isə budur ki, kənd təsərrüfatı istehsalçıları aqrar sahədə kreativ proseslərin birbaşa iştirakçılarına çevrilirlər.

***– Bu gün fermerlərdən hansı özəl keyfiyyətlər tələb olunur?***

– Hazırda bütün sahələrdə olduğu kimi, aqrar sektorda da rəqabət mühiti güclənib. Fermerlər öz işlərini yeni dövrün tələblərinə uyğun qurmağı bacarmalıdırlar. Daim öz üzərlərində işləməli, yeni ideyalara açıq olmalıdırlar. Onlar modern internet texnologiyalarından maksimum faydalanmağı bacarmalıdırlar.

Milli Məclisdə bu vaxta qədər kənd təsərrüfatı sahəsi üzrə, bütövlükdə 300-ə yaxın qanun qəbul olunub və mövcud qanunlara dəyişikliklər edilib. Məsuliyyət hissi ilə deyə bilərəm ki, ölkəmizdə aqrar sektorun sürətli və davamlı inkişafı üçün etibarlı qanunvericilik bazası yaradılmışdır.

Təbii ki, həyat inkişaf edir, yeni qanunların qəbul edilməsinə, mövcud qanunların təkmilləşdirilməsinə zərurət yaranır. Milli Məclisin Aqrar siyasət komitəsi bundan sonra da Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi, digər müvafiq dövlət qurumları, eləcə də aqrar sahədə çalışan təcrübəli alim və mütəxəssislərin fəal iştirakı ilə yeni, daha mükəmməl qanunların hazırlanaraq geniş müzakirə edilməsinə və vaxtında qəbul olunmasına çalışacaq.

***– Aqrar sektorun aparıcı qüvvəsi fermerdir, torpaq mülkiyyətçisidir. Kəndlinin torpağa bağlılığını gücləndirmək üçün daha nə etmək lazımdır?***

– Azərbaycan dövlətinin aqrar siyasətinin mayasında, ilk növbədə fermer və torpaq pay mülkiyyətçilərinin torpağa bağlılığını, maddi və mənəvi məmnunluğunu təmin etmək dayanır. Yeri gəlmişkən, fərmanda aqrar istehsal və emalla məşğul olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dövlət dəstəyinin daha gücləndirilməsi nəzərdə tutulub. Bir sözlə, dövlətimiz fermerlərin fədakar əməyini hər zaman layiqincə dəyərləndirməyə və mükafatlandırmağa hazırdır.

Torpaq halallığı sevir, heç zaman haqsızlığı qəbul etməyib. Aqrar sektor istehsalçılarının bərabər və ədalətli rəqabət şəraitində çalışmaları çox zəruridir. Bu məsələ də dövlətimizin diqqətindədir. Fərmanda Nazirlər Kabinetinə tapşırılıb ki, torpaqların qanunsuz istifadəsinin qarşısı qətiyyətlə alınsın.

Fermerlər əmindirlər ki, onların hazırda istifadə etdikləri pay torpaqları təkcə özlərinin deyil, ailə üzvlərinin, eləcə də gələcək nəsillərin torpaqda halal və ləyaqətlə yaşamalarını təmin edəcək. Fərmanla müvafiq icra qurumlarına pay torpaqlarına dair hüquqi və texniki sənədlərin hazırlanmasını təkmilləşdirmək tapşırığı verilib.

***– Azərbaycanın işğal olunmuş ərazilərdəki torpaqların əkin dövriyyəsinə cəlb olunması üçün hansı işlər görülür?***

– Məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri aparılır. Bu işlər möhtərəm Prezidentimizin birbaşa nəzarətindədir və orada görülən işlərin miqyası və vüsəti hər kəsdə heyranlıq doğurur.

Sevindirici haldır ki, Qarabağda ən yeni texnologiyaların, innovativ ideyaların həyata keçirilməsi nəzərdə tutulub. Məsələn, Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizdə "ağıllı kənd" və "ağıllı şəhər"lərin qurulması nəzərdə tutulur. Bu layihələr ölkəmizin ən modern, kreativ ideyalara nə qədər açıq olduğunun bir daha bariz şəkildə nümayiş etdirir.

Azərbaycan hökuməti ilk "ağıllı kənd" layihəsini işğaldan azad olunmuş Zəngilan rayonunun Üçüncü Ağalı kəndində həyata keçirməyi planlaşdırır. Həmin layihənin icrası əsasən beş komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı" kənd təsərrüfatı və alternativ enerji sahələridir.

Yeri gəlmişkən, inşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Bir daha vurğulamaq istəyirəm, "ağıllı kənd" texnologiyalarının tətbiqi həmin ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişafına şərait yaradacaq və Qarabağ regionunun həm də texnoloji innovasiya-startap mərkəzi kimi cəlbediciliyini artıracaq.

Bəli, bu gün Qarabağ torpağı düşmənin basdırdığı minalardan təmizlənir, dağıdılmız kənd və qəsəbələrimiz bərpa edilir, zəruri infrastruktur layihələri sürətlə icra olunur. Zərrə qədər şübhə etmirəm ki, məcburi köçkün ailələri yaxın vaxtda ata-baba torpaqlarına qayıdaraq, bu gözəl və münbit torpaqları yenidən əkib becərəcəklər. Bu torpaqların bərəkətli buğdasından bişirilən dadlı çörəyin ətri külli Qarabağa yayılacaq, soydaşlarımız yenidən bu yerlərdə xoşbəxt və firavan həyat sürəcəklər.

***Söhbəti qələmə aldı: Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***